# Azadlığa gedən yolun zirvəsi

## Hüzn gününün 33-cü ildönümü

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 20 Yanvar - Ümumxalq Hüzn Gününün 33-cü il dönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Mərkəzin Tədris İstehsalat İşləri üzrə direktor müavini Camal Rəsulov çıxış edərək, 20 Yanvar hadisələrinin xalqımızın tarixində təkcə faciə deyil, həm də istiqlal mücadiləsinin qələbəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü olmasından, Sovet imperiyasının əsarətində yaşamağa məhkum olan xalqın azadlıq səsini ucaltdığı, öz suverənliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli qan yaddaşımızdan danışmış, bu tarixin öz siyasi qiymətini ümummilli liderimiz Heydər Əliyev tərəfindən aldığını və bu hadisələrin beynəlxalq aləmdə tanınmasında ulu öndərin danılmaz rolunu qeyd etmişdir. Tədbirdə çıxış edənlər bildirmişlər ki, tarixin bu qara səhifəsi əbədi olaraq, hər bir azərbaycanlının yaddaşına ümumilli matəm günü olması ilə yanaşı, həm də müstəqilliyin qazanılması uğrunda mübarizənin zirvəsi kimi əbədi olaraq həkk olunmuş bir tarixdir. 20 Yanvar Azərbaycan xalqının "Qanlı" tarixi, 8 Noyabr - Zəfər Günü isə "Şanlı" tarixidir. Tədbirdə şagirdlərin ifasında 20 Yanvara həsr olunmuş səhnəciklər nümayiş etdirilmiş, şeirlər səsləndirmişlər.



## Qan yaddaşı




Qəbələ şəhər 1 saylı körpələr-evi-uşaq bağçasında 20 yanvar tədbiri keçirilib. Tədbirdə bağçanın fidanları 20 yanvara həsr olunmuş şeirlər söyləyib, vətənpərvərlik ruhunda mahnılar ifa ediblər. Bağçanın müdirəsi Nuranə İsmayılova çıxış edərək bildirib ki, 20 yanvar hadisəsi xalqımızın yaddaşında qanlı faciə kimi daxil olub. Bu hadise milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhalinin kütləvi qəhrəmanlığıdır.

Sonda fidanlar simvolik olaraq hazırlanmış "Məşəl abidəsi" önünə tər qərənfillər düzüblər.

## Alban kilsəsində Milad bayramı

Nic qəsəbəsində pravoslav xristianlarının bayramı olan Milad bayramı münasibətilə (7 yanvar) tədbir keçirilmişdir. Qəsəbədə fəaliyyət göstərən "Cotari" alban kilsəsində təşkil edilmiş mərasimdə Alban-Udi icmasının üzvləri ilə yanaşı rayon ictimaiyyətinin nümayəndələri də iştirak etmişlər. Mərasimdə çıxış edən Azərbaycan Respublikası Alban-Udi Xristianları İcmasının sədri Robert Mobili, kilsənin keşişi Rafik Danakari və icmanın üzvləri Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışmış, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Nic qəsəbəsinə göstərdikləri diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirmiş, bayram münasibətilə təbriklər səsləndirmişlər. Qeyd olunmuşdur ki, müsəlmanların və xristianların mehriban şəkildə birgə yaşadığı Nic qəsəbəsi tolerantlığın kiçik modeli hesab edilir. Məlumat verilmişdir ki, Nic qəsəbəsində 3 kilsə və 2 məscid var. "Cotari" alban kilsəsində və Heydər Əliyev Fondunun vitse prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Fond tərəfindən "Müqəddəs Məryəm Ana" (Bulun) məbədində 2020-ci ildə aparılan təmir-bərpa işləri ölkədə tolerantlıq mühitinin yüksək səviyyədə olduğunun bariz nümunəsidir.

**Şəhla XƏLİLQIZI.**

## Ümumtəhsil məktəblərində silsilə tədbirlər



Qəbələ rayon təhsil müəssisələrində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar "Vətən şəhidləri heç vaxt unutmayacaq!", "20 Yanvar-Azadlığa gedən yolun zirvəsi", "Tariximizin şanlı səhifəsi" və digər mövzularda "Dəyirmi masa"lar, xüsusi dərslər keçirilib, divar qəzetləri təşkil edilib. Tədbirlərdə Qəbələ rayon Təhsil sektorunun əməkdaşları, təhsil müəssisələrinin pedaqoji və şagird kollektivləri iştirak ediblər. Ulu öndər Heydər Əliyevin və faciə qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirlərdə Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda aparılan mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələri barədə geniş məlumat verilib. Qeyd olunub ki, böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar hadisəsi öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, əyilməzliyini, məğrurluğunu təcəssüm etdirir. Bu qanlı hadisələr öz siyasi qiymətini də məhz ulu öndər hakimiyyətə gəldikdən sonra tapıb. Bu fikirlər tədbirlərdə edilən çıxışlar zamanı səsləndirilib, belə tarixi hadisələrin təkcə ildönümlərində deyil, hər zaman xatırlanması şagirdlərə tövsiyə edilib. Tədbirdə şagirdlər 20 Yanvar hadisələrinə həsr edilmiş şeirlər söyləyib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

## İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Seyidqışlaq kənd sakini **Məmmədov Fəxrəddin Şəmi oğluna** məxsus, qeydiyyat tarixi 13.10.2006, reyestr nömrəsi 406013000382, qeydiyyat nömrəsi 190601380 olan **torpaq mülkiyyətinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Seyidqışlaq kənd sakini **Məmmədov Fəxrəddin Şəmi oğluna** məxsus, qeydiyyat tarixi 31.08.2009, reyestr nömrəsi 406013006900, qeydiyyat nömrəsi 1909002083, Seriya MH №0015224 olan **torpaq mülkiyyətinə dair çıxarış** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Seyidqışlaq kənd sakini **Məmmədov Fəxrəddin Şəmi oğluna** məxsus, tərtib edilmə tarixi 27.08.2009, reyestr nömrəsi 406013006900, № AA 006223 olan **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Seyidqışlaq kənd sakini **Məmmədov Fəxrəddin Şəmi oğluna** məxsus, qeydiyyat tarixi 31.08.2009, reyestr nömrəsi 406013006899, qeydiyyat nömrəsi 1909002084, Seriya MH №0015225 olan **torpaq mülkiyyətinə dair çıxarış** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Seyidqışlaq kənd sakini **Məmmədov Fəxrəddin Şəmi oğluna** məxsus, tərtib edilmə tarixi 27.08.2009, reyestr nömrəsi 406013006899 olan **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ şəhər sakini **Rəsulov Rəfail Zeynal oğluna** məxsus, qeydiyyat tarixi 21.01.2011, reyestr nömrəsi 406013007919, qeydiyyat nömrəsi 1911000119, seriya MA № 0162067 olan **torpaq mülkiyyətinə dair çıxarış və tərtib edilmə tarixi** 21.012011, reyestr nömrəsi 406013007919 olan **torpaq sahəsinin plan və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Mirzəbəyli kənd sakini **Kərimli İsmi Sahib oğluna** məxsus dövlət qeydiyyat nişanı 77 BD 051 olan BMV markalı maşının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2023-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1250*